# Ordu ölkəmizin müstəqilliyinin və ərazi bütövlüyünün qarantıdır

Güclü ordu dövlətin və onun xalqının təhlükəsizliyinin əsas təməl prinsiplərindən biridir. Ona görə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin daim artırılması torpaqlarımızın işğal altında qaldığı bir vaxtda qarşımızda dayanan ən əsas vəzifədir. Nizami Azərbaycan Ordusunun təməlinin qoyulduğu 1993-cü ilin payızından sonra bu istiqamətdə mühüm addımlar atılıb. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə qısa vaxtda bütün qoşun növlərinin mövcud olduğu, müasir döyüş imkanlarına malik Azərbaycan Silahlı Qüvvələri formalaşdırılıb.

1993-cü il iyunun 15-də ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtdıqdan sonra qısa müddətdə ayrı-ayrı siyasi qüvvələrə xidmət edən hərbi birləşmələr əvəzinə, vahid komandanlığa tabe olan nizami ordu formalaşdırıldı. Onun ölkə rəhbərliyinə qayıdışı Azərbaycanın ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində əsl dönüş yaratdı. Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli maraqlarını qorumağa qadir olan nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı. Bütün siyasi və diplomatik vasitələrin işə salınması nəticəsində 1994-cü il mayın 12-də atəşkəs əldə edildi. Atəşkəsin elan edilməsi Azərbaycanın dövlət olaraq, iqtisadi, sosial, siyasi və hərbi baxımdan dirçəlməsi, qüdrətlənməsi, ordusunu dünya standartlarına uyğun formalaşdırması baxımından çox önəmli idi. Məhz ölkədə nisbi sakitlik bərpa edildikdən sonra ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara başlanıldı. Tezliklə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin sistemləşdirilməsi başa çatdırıldı. Orduya çağırışla bağlı bütün problemlər həll edildi. Dövlətçiliyi və hərbi andı hər şeydən uca tutan, hərbçi olmağı şərəf bilən zabitlər hərbi hissələrin rəhbərliyinə cəlb olundu. Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, gənclər arasında hərbi-vətənpərvərlik duyğularının artırılması istiqamətində işlər görüldü. Ordu quruculuğunun müxtəlif sahələri ilə bağlı zəruri olan qanunlar qəbul edildi. Ölkədə hərbi kadr hazırlığı və beynəlxalq standartlara cavab verən hərbi təhsil sistemi formalaşdırıldı. Ulu öndərin 1998-ci il mayın 22-də imzaladığı fərmanla 1918-ci ildə Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan edildi.

Sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biridir. Son illər ölkəmizin iqtisadi qüdrətinin artması sosial məsələlərin həllinə və milli ordumuzun möhkəmlənməsinə geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Digər tərəfdən, Azərbaycanda hərbi-sənaye potensialının gücləndirilməsi ilə bağlı görülən işlər nəticə etibarilə orduda aparılan geniş quruculuq işlərinin nəticəsidir. Bu gün Azərbaycan əsgəri havada, suda və quruda Vətənin maraqlarını şərəflə qoruyur. Müasir müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. Vətənimizin qorunmasının, işğal altında olan torpaqlarımızın azad olunmasının başlıca amilini ordumuzun daha da möhkəmləndirilməsində görən ulu öndər tez-tez səngərlərdə olur, əsgər və zabitlərlə şəxsən görüşür, ölkənin müdafiə qüdrətini və hərbi potensialını artırmaq üçün ciddi addımlar atırdı. Bu gün Azərbaycanın qüdrətli və nizami orduya malik olması məhz ümummilli lider Heydər Əliyevin gərgin zəhmətinin bəhrəsidir. Ulu öndər deyirdi: “Ordu yaratmaq, qurmaq asan bir iş deyildir. Əgər nəzərə alsaq ki, sovet hakimiyyəti dövründə bizdə bunun əsası olmayıbdır, bu, asan iş deyildir. Ona görə də ordunun, Silahlı Qüvvələrin yaranmasına, ordu quruculuğuna dövlətin, bütün hakimiyyət orqanlarının xüsusi qayğısı olmalıdır. Azərbaycan Prezidenti, Ali Baş Komandan bu qayğını göstərir və bundan sonra da göstərəcəkdir. Ancaq bu təkcə məndən asılı deyildir. Hər bir hakimiyyət orqanının kiçik, ya böyük hissəsi, hər bir vətəndaş gərək hər bir sahədə ordu quruculuğuna öz töhfəsini, öz payını versin. Çünki ordu xalqındır. Ordu, Silahlı Qüvvələr xalqın təhlükəsizliyini və müstəqil dövlətin suverenliyini qorumaq üçün lazımdır”.

Güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir. Çünki müstəqil dövlətin nüfuzu iqtisadi, siyasi və elmi potensialı ilə yanaşı, onun malik olduğu ordusunun qüdrəti ilə də ölçülür. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ali Baş Komandan, Prezident İlham Əliyevin apardığı ardıcıl siyasətin nəticəsində bu gün ordumuza göstərilən diqqət sayəsində silahlı qüvvələrimiz müasir silah-sursat, döyüş texnikası, o cümlədən təyyarə, helikopter və artilleriya sistemlərinin keyfiyyəti, şəxsi heyətin sayı və döyüş əzmi baxımından düşmən ordusunu dəfələrlə qabaqlayır. Çox böyük qürurverici haldır ki, bu dəfə də silahlı qüvvələrin bütün şəxsi heyəti qisas və qələbə hissi ilə yaşayır, torpaqlarımızı işğaldan azad etmək uğrunda müqəddəs borcunu yerinə yetirməyə qadir olduqlarını nümayiş etdirdilər. Azərbaycan əsgəri yalnız öz gücü və qüvvəsinə güvənərək düşməni işğal olunmuş torpaqlardan qovmaqla ərazi bütövlüyümüzü bərpa etməyə qadir olduqlarını əzmkarlıqla nümayiş etdirdilər. Təbii ki, bütün bunlar Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin tövsiyə və tapşırıqları əsasında reallaşdırılır.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin fəaliyyətində ordu quruculuğu məsələləri daim prioritetdir. Bu istiqamətdə Heydər Əliyevin başladığı işləri davam etdirən ölkə rəhbərinin qarşıya qoyduğu vəzifə Silahlı Qüvvələrin döyüş qabiliyyətinin ən yüksək səviyyəyə çatdırılmasıdır. Bu mənada güclü iqtisadiyyata mütənasib güclü ordu formulu ötən 15 ildə Prezident İlham Əliyevin fəaliyyətinin əsas qayələrindən biri kimi diqqəti cəlb edib. Reallıq ondan ibarətdir ki, respublikamızın artan maliyyə imkanları Silahlı Qüvvələrimizin müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb.

Hazırda Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri öz döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Azərbaycan vətəndaşları Silahlı Qüvvələrimizdə baş verən keyfiyyət və kəmiyyət dəyişikliklərini ordumuzun keçirdiyi təntənəli hərbi paradlarda da görüb. Ölkəmizin hərbi qüdrətinin nümayişi olan belə paradlarda xalqımız və beynəlxalq ictimaiyyət Azərbaycanın mükəmməl hərbi gücə malik olduğuna şahidlik edib. Təsdiq olunub ki, Azərbaycan Ordusu arsenalını ən modern silah və digər hərbi texnika ilə zənginləşdirir. Ən fərəhlisi odur ki, bu gün dünyanın hərbi baxımdan inkişaf etmiş dövlətlərinin malik olduqları strateji silahlar Azərbaycanda var.

**“Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Biz heç vaxt Azərbaycan ərazisində ikinci qondarma erməni dövlətinin yaranmasına icazə verməyəcəyik. Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək. Əgər kimsə bunu gözləyirsə, qoy, əbəs yerə gözləməsin. Bu, olmayacaq”.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Artıq Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasından 100 il ötür. Ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf yoluna qədəm qoyan Azərbaycan Silahlı Qüvvələri bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz şərəfli missiyasını uğurla davam etdirir. Bunun nəticəsidir ki, ölkəmiz nüfuzlu beynəlxalq tədbirlərin, yarış, forum və konfransların keçirildiyi mühüm məkana çevrilməklə, dövlətimizin iqtisadi qüdrətini, mədəni irsini dünyaya təqdim edir. Artıq Azərbaycan istənilən zəruri anda dövlətə olan təhdidlərin vaxtında qarşısını almaqla bərabər, düşmənə istər diplomatik, istərsə də hərbi arenada layiqli cavab vermək iqtidarına malikdir. İşğal altında olan torpaqlarımızın azad edilməsi təkcə ordumuzun deyil, hər bir vətəndaşın şərəf məsələsidir və hər kəsin üzərinə müəyyən vəzifələr qoyur. Bu gün dünya Azərbaycan Ordusunu ciddi nizam-intizamlı, peşəkar, hazırlıqlı, müasir standartlara cavab verən, eləcə də hər an işğal altında olan torpaqları azad etmək qüdrətində malik hərbi qüvvə kimi görür. Bu da təbiidir. Mütəmadi olaraq, Bakının küçələrində Silahlı Qüvvələr Günü münasibətilə təşkil edilən paradlar dövlətimizin hərbi qüdrətini dünyaya bəyan edir. Əsgər və zabit heyətinin çıxışları, hava şahinlərimizin səmada bacarıqları, ən əsası, ordumuzu dəstəkləmək üçün küçə və meydanlara axışan vətəndaşların sevgisi ordumuzun qüdrətinin və ona olan inamın göstəricisidir.

Ali Baş Komandanın Qarabağ münaqişəsi ilə bağlı yürütdüyü uzaqgörən və uğurlu diplomatik siyasət artıq münaqişə ilə bağlı həqiqətlərin beynəlxalq qurumlara çatdırılmasında mühüm təsir göstərir, bir sıra ölkələr yeri gəldikcə, nüfuzlu mötəbər tədbirlərdə Ermənistanın işğalçılıq siyasətini pisləyir, işğal altında olan torpaqların azad edilməsini səsləndirirlər.

Ölkə Prezidentinin 2005-ci il 16 dekabr tarixli sərəncamı ilə Müdafiə Sənayesi Nazirliyinin yaradılması dövlətin ordunu hərbi məhsullarla təminatında əsaslı dönüş oldu. Məqsəd ordumuzu zəruri silah, sursat və texnika ilə təchizatına yüksək səviyyədə nail olmaqdır. Artıq Azərbaycanın istehsal etdiyi hərbi məhsulların dünya sərgilərində nümayişi və marağa səbəb olması ölkəmizin düzgün hərb siyasəti yeritdiyini bir daha sübut edir. Azərbaycanla Cənubi Afrika Respublikasının birgə istehsalı olan “Matador” və “Marauder” tipli zirehli maşınlar, 12,7 və 14,5 mm-lik “İstiqlal” snayper tüfənglərin beynəlxalq sərgilərdə ən çox diqqət çəkməsi dövlətimizin hərbi sənayedə uğurlarının perspektivlərinin göstəricisidir.

Azərbaycan Cənubi Qafqazda ən güclü silahlı qüvvələr formalaşdırmaqla regionda öz mövqelərini möhkəmləndirib. Məhz Azərbaycanın güclü silahlı qüvvələrə malik olması ölkənin ərazi bütövlüyü və suverenliyinin dinc yolla bərpası, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsipləri əsasında nizamlanması üçün də mühüm amildir. Ona görə də, əminliklə deyə bilərik ki, Azərbaycan Ordusu hər an torpaqlarımızı işğaldan azad etməyə hazırdır.



Məlum olduğu kimi, Böyük qayıdışın başlanğıcı hesab edilən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin birinci mərhələdə bərpası başa çatdırılıb. Kənddə insanların təhlükəsiz yaşaması üçün bütün zəruri tədbirlər görülüb. Tarixən burada yaşamış dinc əhalinin öz doğma yurdlarına qayıtması üçün Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarətinə keçmiş ərazilərdə qısa zamanda aparılan əsaslı yenidənqurma işləri belə bir nəticənin əldə edilməsinə imkan yaradıb. Bu kənd 1993-cü ilin oktyabrında ermənilər tərəfindən işğal olunmuşdu. Ulu öndərin qətiyyəti sayəsində 1993-cü ilin dekabrından 1994-cü ilin yanvarına qədər davam edən və hərb tariximizə şanlı səhifə kimi yazılmış uğurlu Horadiz əməliyyatı nəticəsində 20 kənd, o cümlədən Cocuq Mərcanlı kəndi də işğaldan azad edildi. Amma təhlükəsizlik baxımından bu kənddə uzun müddət məskunlaşmaq qeyri-mümkün idi.

2016-cı ilin aprelindəki dördgünlük müharibədə ordumuzun strateji əhəmiyyətli Lələtəpə yüksəkliyini azad etməsi nəticəsində Cocuq Mərcanlı kəndinin ərazisi tamamilə Azərbaycanın nəzarətinə keçdi. 22 il sonra Azərbaycan Ordusu ermənilərin təxribatçı hərəkətinə layiqli cavab verməklə tariximizə şanlı səhifə yazdı. Azərbaycan Ordusunun aprel döyüşlərindəki qələbəsindən sonra cocuqmərcanlıların torpaq həsrətinə son qoyuldu. Dövlət başçısının 2017-ci il yanvarın 24-də imzaladığı “Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası haqqında” sərəncamı xüsusi əhəmiyyətə malik sənəd oldu. Həmin sərəncamda deyilir: “Ötən ilin aprel ayında Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum hərbi əməliyyatı nəticəsində erməni işğalından azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində insanların təhlükəsiz yaşaması mümkün olmuşdur. Bununla da tarixən burada yaşamış dinc əhalinin öz doğma yurduna qayıtması üçün Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarətinə keçmiş həmin ərazilərdə əsaslı yenidənqurma işlərinin başlanmasına şərait yaranmışdır”. Azərbaycan Prezidentinin imzaladığı sərəncama əsasən, bu yaşayış məntəqəsi bərpa olundu və müasir infrastruktur formalaşdırılaraq insanların doğma torpaqlarında rahat və təhlükəsiz yaşamasına şərait yaradıldı. 2017-ci ilin iyunun 14-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfərə gələn ölkə Prezidenti cənab İlham Əliyev görülən işlərlə tanış olubdur. Burada Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin mütəxəssisləri qısa müddətdə 2 milyon 600 min kvadratmetr ərazinin minalardan, partlamamış döyüş sursatlarından təmizlənməsini həyata keçirmiş, həmin ərazilər yaşayış üçün əlverişli vəziyyətə gətirilmişdir. Birinci mərhələdə kənddə 10 hektar ərazidə 50 fərdi evin və müvafiq infrastrukturun tikintisi aparılıb. Tikilmiş evlərə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən olan, əsasən Bakı şəhərində müvəqqəti məskunlaşmış məcburi köçkünlər köçürüləcək. Ümumi sahəsi 3850 kvadratmetr olan evlərin 20-si ikiotaqlı, 25-i üçotaqlı, 5-i isə dördotaqlıdır. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin yenidən qurulması və sakinlərin doğma yurd-yuvalarına qayıtmaları əslində Azərbaycanda böyük qayıdış proqramının başlanğıcıdır. Bu gün artıq Cocuq Mərcanlıda sakinlərin asayiş içində yaşaması üçün şərait var. Ölkə Prezidenti cənab İlham Əliyev kənd sakini Oqtay Həziyevin evi ilə tanışlığı zamanı demişdir: “Bu gün ölkəmizin həyatında əlamətdar gündür, tarixi bir gündür. Bu gün Cocuq Mərcanlı kəndinin bərpası günüdür. Mən sizi və bütün Azərbaycan xalqını bu gözəl hadisə münasibətilə təbrik edirəm. Cocuq Mərcanlı kəndinin bərpası doğrudan da tarixi hadisədir. Siz - bu kənddə yaşayan insanlar bu kəndin tarixini yaxşı bilirsiniz. İndi bütün Azərbaycan Cocuq Mərcanlı kəndinin tarixini bilir, bütün dünya Cocuq Mərcanlını tanıyır. Bu kəndin Azərbaycan tarixində xüsusi yeri vardır. Siz yaxşı bilirsiniz ki, Cocuq Mərcanlı kəndi cəmi bir neçə ay erməni işğalı altında olub. Bu bir neçə ay ərzində erməni işğalçı qüvvələri kəndi tamamilə dağıtmışdılar, bütün binaları sökmüşdülər. Yəni, Cocuq Mərcanlı kəndi erməni vəhşiliyinin canlı şahididir. 1993-cü ilin dekabrında ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə keçirilmiş uğurlu Horadiz hərbi əməliyyatı nəticəsində 20-dən çox kənd, o cümlədən Cocuq Mərcanlı kəndi, Horadiz qəsəbəsi, - bu gün Horadiz şəhəridir, - işğaldan azad olundu. Ancaq burada yaşamaq təhlükəli idi. Buna baxmayaraq, Həziyevlər ailəsi burada yaşayıb”.

Digər bir xoş xəbəri isə ötən ayın son günlərində aldıq. 1992-ci ildə erməni silahlı birləşmələri tərəfindən işğal edilən Şərur rayonunun Günnüt kəndi 26 ildən sonra Ordumuzun nəzarəti altına keçib. Mayın son günlərində Şərur rayonunun Günnüt kəndi və ətafındakı mühüm strateji əhəmiyyəti olan yüksəkliklər Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edilib. Bununla da ordumuz daha əlverişli mövqelərə sahiblənib, “Xunut” dağı və “Ağbulaq” yüksəkliyi, daha sonra isə “Qızılqaya” dağı və “Mehridağ” işğaldan azad edilərək Dərələyəz mahalının Arpa kəndi (Ermənilər adını dəyişdirərək “Areni” qoyublar) nəzarət altına keçib. Ümumilikdə 11 min hektara yaxın ərazi nəzarət altına alınıb. Bu ərazinin isə 8 min hektardan artığı əkin üçün, xüsusilə dəmyə əkinçiliyi üçün yararlı ərazilərdir.

Şərur rayonunun Günnüt kəndini nəzarətdə saxlamağa imkan verən, dəniz səviyyəsindən 1683 metr hündürlükdə yerləşən Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti isə İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna ordumuza nəzarət etməyə imkan verməsidir. Ərazinin etibarlı müdafiəsi və təminat məqsədi ilə 50 km yeni yol çəkilib, 50 km-dən artıq yararsız yollar isə bərpa edilib. Strateji əhəmiyyətli Arpaçay Su Dəryaçasının taktiki cəhətdən etibarlı mühafizəsinin təşkili üçün hakim yüksəkliklərdə yeni müdafiə mövqeləri qurulub. 26 illik həsrətdən sonra dünən günnütlülər maşın karvanı ilə doğma torpağa qayıdıb, əzizlərinin məzarını ziyarət ediblər. Ümumilikdə, 11 min hektara yaxın ərazi düşməndən azad edilib. Naxçıvan istiqamətində baş verənlər qurulmasının 100 illiyini qeyd edən ordumuzun bir əsrlik yaşına ən böyük hədiyyədir.

Bu gün ön cəbhədəki əsgərlər Azərbaycan dövlətçiliyini, ərazi bütövlüyünün qorunmasında ayıq-sayıqdırlar. Təmas xəttində əllərində silah gecə-gündüz Vətənə keşik çəkən igid əsgər və zabitlərimiz var. Cəbhənin o tayında əsgərlərimizə boylanan el-obamız, cəbhənin bu tayında isə Ali Baş Komandanın əmri ilə o yurd yerlərini qaytaracaqları günü gözləyən oğullarımız var. Tezliklə Qələbə sorağı ilə bizləri sevindirin, Azərbaycan igidləri!

**Müşfiq MİRZƏ,**
**“Respublika”.**